## 2025-ci il Konstitusiya və Suverenlik ilidir

# FOLKLORUMUZDA KONSTİTUSİON MÜDDƏALARIN İNİKASI

*(Əvvəli ötən sayımızda)*

Quran kəlamları islam hüquqlarını anlatdığı kimi, bir müsəlman olaraq sahib olduğu və ola bilmədiyi haqları izah etdiyi kimi, atalar sözlərimiz (eləcə də digər folklor nümunələrimiz) bir Azərbaycanlı kimi, bir insan-vətəndaş kimi həyatın mənasını şifahi şəkildə-yəni yazılmamış qanunlar olaraq beynimizə-düşüncəmizə aşılayır. Xalq hikmətinin sirlərindən baş açabilmək əslində insanın özünün özünü tanıya bilməsi - bir vətəndaş, insan olaraq öz hüquq və vəzifələrini yetərincə anlaya bilməsi deməkdir. İstərdim ki, ayrı-ayrı xalq yaradıcılığı örnəklərinə üz tutmaqla onların cövhərində inikasını tapan konstitusion maddələrin hüquqi baxımdan daşıdığı mənalara diqqəti yönəldəm. Uşaq vaxtlarımdan dəfələrlə anamdan eşitdiyim aşağıdakı məsəlimiz prinsipcə cinayət hüququna aid maddənin xalq düşüncəsindəki müvafiq bəndi timsalındadır: "Keçini keçi ayağından asacaqlar, qoyunu qoyun ayağından". Bu deyim nələrə işarə etmir? Bu məsəlin müxtəlif məna paradiqmaları var. Əvvəla, islamı düşüncədən gələn axirətdəki günahlarının cəzası olaraq hər kəsi öz ayağından (yəni öz günahından) asacaqlar - ittiham, sorğu-sual edəcəklər fikri-düşüncəsi burda özünə yer alıb. Yəni hər kəsi öz ayağından-törətdiyi günahın üstündə sorğuya çəkəcəklər. İkincisi, burada tərəkəmə düşüncəsindən çıxış edilməklə deyilir ki, kəsilən heyvanın (qoyun və keçinin) dərisinin soyulması üçün onu bir asılqandan (həmin heyvanın özünün kəsilmiş cəmdəyini öz ayağına ilgək kimi keçirməklə) asacaqlar. Yəni ki, keçi kəsilibsə, həmin kəsilən keçinin öz ayağından da özünü asılqana keçirib asacaqlar.

Daha gedib başqa bir yerdən hansısa heyvanın-ya qoyunun ayağını kəsib gətirməyəcəklər ki, başqa heyvanın (qoyunun) ayağından kəsilmiş keçinin cəmdəyini asalar. Bir sözlə, kəsilən heyvan (qoyun, keçi) özünün (başqa heyvanın yox, məhz kəsilən heyvanın özünün) ayağından asılacaq dərisinin soyulması üçün. Burada heyvanın ayağı edilən günah (cinayət) mənasında, dərisinin soyulması-asılması isə ittiham olunması mənasında anlaşılır. Keçi, qoyun ifadələri isə heyvanın ayrı-ayrı cinslərinin timsalında metaforik olaraq cinayətkar insana işarə edir. Yəni keçinin keçi, qoyunun qoyun ayağından asılması (mühakimə edilməsi) o anlama gəlir ki, hər kəs öz günahının (cinayətinin) cəzasını çəkəcəkdir. Göründüyü kimi, fikrin alt qatından insanlara cinayət hüququ dərsi keçilir: hər kəs edəcəyi günaha (yəni cinayətə) görə hakim qarşısına çıxarılacaq və onun müqabilində hökm oxunulacaqdır.

İqtisadiyyat hüququna dair xalqımızın belə bir deyimi var: "Malını-pulunu xərc elə, ona görə də borc elə". 80 ildən çox ömür sürmüş Bayraməli Həzrətqulu oğlu Quliyevdən eşitmişəm bu kəlamı. Ailə hüququ ilə bağlı ailədaxili iqtisadi gəliri-çıxarı hesablaya bilməyə yönəlmiş xalq hüququdur bu. İndiki kapitalist dünyasında cəmiyyətdəki bərabərsizlik hallarının müşahidə olunduğu bir dövrdə - şəraitdə "hər kəsin yorğanına görə ayağını uzatması" tövsiyə olunur burada. Yeri gəlmişkən, "Ayağını yorğanına görə uzat" məsəli də elə bu yuxarıdakı məsəllə eyni mənaya gəlir. Yəni hazırkı əyyamda çoxları nəfsinə qul olub ağır kredit götürürlər - borc altına girirlər. Məsələn, bir varlı şəxs qızını gəlin köçürəndə ona cehiz olaraq dünya malından nə varsa yığıb verir. Buna kənardan baxan bir kasıb adam da öz qızını gəlin köçürəndə həmin varlı şəxs kimi qızına cehizlik olaraq hər şey vermək istəyir. Buna real imkanı çatmadığından yüksək faizlə kredit (borc) götürür. Buna müvafiq ironik tərzdə deyilən bir xalq deyimimiz də var: "Kasıb iki dəfə keflənər, bir borc alanda, bir də borcu qaytaranda". Burda borc almaq və borc qaytarmaq arasında olan məsafəyə ironik - yumoristik tərzdə diqqət yönəldilsə də, əslində insanları dolayısı ilə ayıq-sayıq olmağa, borcu-xərci götür-qoy edə bilməyə çağırış var. Yenə qayıdıram ilk variantın üstünə. "Malını-pulunu xərc elə" - özünün evində olanını-qalanını (maaşını, gəlirini-çıxarını) "xərc elə" - yəni özlüyündə haqq-hesab elə, ona görə də (yəni ondan sonra da) borc elə-yəni borca gir, borc götür. Əgər "malını-pulunu xərc eləyəndə" evinin-ailə büdcənin eləyəcəyin borcu-krediti qaytarmaq imkanı çatmırsa, götürəcəyin borcu qaytara bilmək imkanı ilə uzlaşmırsa, demək, onda haray bəri başdan deyib, heç bu borcun altına girmə ki, özünü də sonradan çıxılmaz hala salmayasan. Borcu qaytara bilmədiyin təqdirdə ya hardansa oğurluq və s. kimi cinayəti eləməyə məcbur qalacaqsan, ya da ki borclu olduğun adamın yanında başıaşağı olacaqsan, həmin borc götürdüyün (şəxs) də səni borcuna görə məhkəməyə verəcək və s. Göründüyü kimi, xalq hikməti iqtisadi hüquq barədə maarifləndirici missiyanı yerinə yetirir.

"Ərdəbil bir şəhərdir, hər küşdə (hər kəs də) öz vəkili" deyimimizdəki "vəkil" ifadəsi isə birbaşa hüquqi termini öz əhatəsinə alır. Yəni Ərdəbil şəhərinin timsalında oranın sakinlərinin hər birinin öz vəkili - hüquqlarının müdafiəçisi kimi özlərini apardığını göstərən bu məsəldə xalqın hüquqi baxışlara münasibəti öz ifadəsini tapıb. Yəni hər kəs özü özünün vəkili kimi özünü aparır. Buna müvafiq bir ironik deyimimiz də var: "Hətis keyxa, Mətis keyxa, bir evdə var otuz keyxa". Bu məsəldə bir evin içində Hətis də, Mətis də-yəni bir evdə olan otuz nəfərin hamısının özünü keyxa (kovxa) kimi apardığı söylənilməklə, əslində həmin evdə-ailədə anarxiya olduğu göstərilir. Yəni ailə kiçik bir dövlətdir, ailədə böyüyün öz yeri, kiçiyin öz yeri olmalıdır. Hər kəs özünü böyük (keyxa-kovxa) kimi aparsa, onda bütün hüquqlar gözardına alınar. Yəni ailənin öz içində də bir ailədaxili hüquq normaları olmalıdır prinsipi güdülür bu məsəldə. Gördüyümüz kimi, xalqımız Konstitusion müddəaları hər şeydən əvvəl, öz evində - ailəsində irəli sürür, hər kəsin ailə şəraitində belə özünün imtiyazlarının olmasına önəm verir. Konstitusiyada əksini tapan ailə hüququ məsələsi xalq düşüncəsində bu cür öz əksini tapıb.

"Filankəs qazıcan da bilir, quzucan da" ("Filankəs qəzicən də bilir, qüzücən də"). Bu məsəlin birincisində qazı-quzu, digərində isə saitlər incə səslə tələffüz olunmaqla "qəzi-qüzü" şəklində işlənib "Qazı" (qəzi) ifadəsi dini dövlətdə hakimə verilən addır. İslam ölkələrində hüquqi məsələlərə baxan məhkəmə işçisi hakim mənasını verən qazı rütbəsi ilə adlandırılır. Deyimdəki qazı-quzu (yaxud qəzi-qüzü) ifadəsindəki quzu ("qüzü") sözləri "sınıx-sunux", "əzik-üzük", "əyri-üyrü" və s. sözlərinin ikinci tərəfindəki kimi müstəqil mənası olmayan, birinci tərəfə tabe qismində müvafiq olaraq işlənən ifadələrdir. İslam dinindəki məhkəmə işlərini icra edən qazının hüquqi məsələləri çox bilməsinə rəğmən kiminsə çoxbilmişliyi müqayisə olunmuşdur. Üstəgəl, bu deyim vasitəsilə xalqımız məhkəmə-hüquq anlayışları ilə bağlı düşüncələrindəkini aydınlığı ilə ortaya qoyur.

"Haqq var, divan yox" məsəli haqqın olduğunu, ancaq ölkədə haqsızlığa qarşı divan-məhkəmə olmadığını bildirməklə qanunsuzluğun baş alıb getməsini, "haqq da var, divan da var" məsəlimiz isə ölkədə haqqın-ədalətin də, divanın-məhkəmənin də olduğunu bildirir. Bu məsəllər isə xalqın konstitusion hüquqlara münasibətini bildirən folklor nümunələri olmaqla dövlətin Konstitusiyasına aid xalq bilgilərini əks etdirir. Dövlət başçısının qanunun aliliyinə münasibətini ifadə edən digər folklor janrlarına da kifayət qədər misallar gətirə bilərik. Misal üçün, "Haqq var, divan yox" adlı bir nağılda deyilir ki, iki nəfər qazanc məqsədilə başqa bir ölkəyə səfərə getmişdi. Bir müddət sonra bunlar azdan-çoxdan qazanıb öz vətənlərinə qayıtmaq istəyirlər. Yolda bunların biri öz yoldaşını öldürüb onun da varını-pulunu ələ keçirir. Öldürülən yoldaşı görür ki, buna gücü çatmayacaq, başını kəsib öldürəcək. Son məqamda ondan xahiş edir ki, səndən bircə xahişim var. Mən gələndə arvadım ikicanlı idi. Ona mənim dilimdən çatdırarsan ki, mənim övladımın adını "Haqq var, divan yox" qoysun. Qərəz, dostu namərdlik edib kişinin başını kəsir, onun qazandıqlarını da özünə götürüb evinə gəlir. Öldürülənin arvadı ondan ərini xəbər alır. Deyir ki, sənin ərin gələndə mənə vəsiyyət elədi ki, oğlumuz olanda adını "Haqq var, divan yox" qoysun. Nəhayət, qadın bari-həmlini yerə qoyur, oğlu olur, adını "Haqq var, divan yox" qoyur. Aradan bir neçə il keçir. Kişinin oğlu böyüyüb müəyyən yaşa çatır. Bir gün yoldaşları ilə çölə - bacaya gəzməyə çıxır. Arvad oğlunu çağırıb-haraylayır ki, evə gəlsin. Bu vaxtlarda ölkənin padşahı da öz vəziri ilə kəndi-kəsəyi, vilayəti gəzməyə çıxıbmış ki, camaatın, rəiyyətin halı-əhvalı ilə, günü-güzəranı, dolanışığı ilə maraqlansın. Görsün ki, əhali necə yaşayır, nədən korluqları var. Birdən padşahın qulağına belə bir səs dəyir ki, "ay haqq var, divan yox"... Padşah vəzirə deyir ki, bu kimdir belə "ay haqq var, divan yox" deyə çığırır. Gedək görək o kimdir, nədən narazıdır ki, belə deyir. Necə yəni haqq var, divan yox. Bəs biz nəyik ki? Bəs biz haqq-ədaləti qorumuruqmu? Niyə divan yoxdur ki?

*(Davamı var)*

***Şakir ALBALIYEV***
***AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, fil.ü.f.d., dosent.***